**“Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il üçün xərclər smetası haqqında” Azərbaycan Respublikası Milli Məclisinin 2022-ci il 9 dekabr tarixli 688-VIQR nömrəli Qərarında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 52-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

“Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il üçün xərclər smetası haqqında” Azərbaycan Respublikası Milli Məclisinin 2022-ci il 9 dekabr tarixli 688-VIQR nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

**I**. 1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1. Azərbaycan Respublikası Milli Məclisinin və onun aparatının 2023-cü il üçün xərclər smetası **55.794.109 (əlli beş milyon yeddi yüz doxsan dörd min yüz doqquz)** manat məbləğində təsdiq edilsin.

**II**. 2-ci bənddə aşağıdakı dəyişikliklər edilsin:

1. **“Malların (işlərin və xidmətin) satınalınması”** adlı **220000** bölməsində **“9.589.580 (doqquz milyon beş yüz səksən doqquz min beş yüz səksən)”** rəqəmləri və sözləri **“12.139.580 (on iki milyon yüz otuz doqquz min beş yüz səksən)”** rəqəmləri və sözləri ilə əvəz edilsin.

2. “İcarə və muzdlu xidmətlər” adlı 222410 maddəsində “3.000.000 (üç milyon)” rəqəmləri və sözləri “5.000.000 (beş milyon)” rəqəmləri və sözləri ilə əvəz edilsin.

3. “Xarici ezamiyyətlər” adlı 222520 maddəsində “1.800.000 (bir milyon səkkiz yüz min)” rəqəmləri və sözləri “2.100.000 (iki milyon bir yüz min)” rəqəmləri və sözləri ilə əvəz edilsin.

4. “Xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi” adlı 224120 maddəsində “1.000.000 (bir milyon)” rəqəmləri və sözləri “1.250.000 (bir milyon iki yüz əlli min)” rəqəmləri və sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

**Bakı şəhəri, 16 iyun 2023-cü il**
**№ 920-VIQR**